# Qəbələ VII Beynəlxalq Musiqi Festivalı

## Qəbələ VII Beynəlxalq Musiqi Festivalının iştirakçılarına

*Əziz dostlar! Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən öz qapılarını iştirakçılarının və qonaqlarının üzünə açır. Bizim festival Azərbaycanın ən gözəl guşələrindən biri olan Qəbələdə keçirilir. Bu gün qala divarlarının və məbədlərin qalıqları bu şəhərin qədim zamanlarda əfsanəvi dövlətin - Qafqaz Albaniyasının paytaxtı olduğunu xatırladır. Məhz Qafqaz Albaniyası dövründən tolerantlıq ənənələrinin qorunub saxlanıldığı, müxtəlif xalq və dinlərin nümayəndələrinin əsrlər boyu sülh içində yaşadığı, mədəniyyət və sivilizasiyalararası dialoqun təşviqi və inkişafına daim öz töhfəsini verən Azərbaycan son illər beynəlxalq musiqi və incəsənət festivallarının, konfrans və sərgilərin, idman yarışlarının keçirildiyi məkan kimi tanınmaqdadır. Fərəhləndirici haldır ki, iyun ayında ilk dəfə olaraq keçirilən Avropa Oyunlarına ev sahibliyini məhz Azərbaycan etmişdir. Azərbaycan birinci Avropa Oyunlarının açılış mərasimində tarixini, mədəniyyətini, musiqisini, müasirliyini dünyaya təqdim edə bildi. Açılış mərasimində Azərbaycanın dahi bəstəkarları Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun əsərləri səslənərək Azərbaycan musiqisini bütün dünyada bir daha tanıdaraq, möhtəşəmliyini növbəti dəfə vurğuladı.*

*2009-cu ildə Qəbələdə musiqi festivalının keçirilməsi ilə milli musiqi mədəniyyəti tarixində yeni ənənənin təməli qoyuldu. Beynəlxalq mədəni əlaqələrin genişləndirilməsi, zəngin musiqi mədəniyyətimizin dünya ictimaiyyətinə çatdırılması, xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsi işinə xidmət edən bu festival artıq gözəl bir ənənəyə çevrilərək beynəlxalq nüfuzunu ildən-ilə artırır. Qəbələ bütün musiqiçilərin, tamaşaçıların, sənətsevərlərin tanınmış və sevimli görüş yerinə çevrilmişdir. Bu festival Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni həyatında mühüm hadisədir.*

*Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir. Əminəm ki, indiki festival sərhəd və rəqabət tanımayan musiqi dünyasında bizə gözəl birlik hissi bəxş edəcək daha bir bayrama çevriləcəkdir. Bütün iştirakçılara və qonaqlara uğurlar və festivalımızın heyranedici mühitində xoş ünsiyyət arzulayıram.*

**Mehriban ƏLİYEVA,**
**Heydər Əliyev Fondunun Prezidenti,**
**UNESKO və İSESKO-nun Xoşməramlı səfiri.**

## Dünya musiqi ictimaiyyətinin diqqəti yenidən Qəbələyə yönəlmişdir





İyulun 25-dən dünyanın estrada və simfonik musiqisevərlərinin diqqəti yenidən bənzərsiz və esazkar təbiətə malik Qəbələyə yönəlmişdir.

2009-cu ildən başlayaraq hər il yay aylarında Avropanın, Asiyanın, Amerkanın, Afrikanın, bir sözlə dünyanın tanınmış və ən məşhur musiqiçiləri, drijorları bədii kollektivləri Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçıları olurlar. Azərbaycana qonşu ölkələrdən, hətta dünyanın bir çox ölkələrindən musiqisevərlər Qəbələyə qonaq gəlir, bu mötəbər musiqi bayramının iştirakçısı olmaqla gürur hissi keçirirlər. Qonaqlar Azərbaycan, o cümlədən qədim tarixə malik Qəbələ ilə tanışlıqdan çox məmnun qalır və öz ölkələrinə aldıqları musiqi təəssüratları ilə yanaşı bu məkandan təbiətin əsirgəmədiyi hədsiz gözəlliklərlə bağlı unudulmaz xatirələrlə qayıdırlar. Onlar bir daha təsdiq edirlər ki, həqiqətən bəşər mədəniyyətinin yaranmasında Azərbaycanın, 900 il qədim Alban dövlətinin paytaxt şəhəri olmuş Qəbələnin xüsusi yeri vardır. Bu doğma diyara ilk dəfə gələn qonaqların çoxu bir daha dünyada bənzəri olmayan gözəlliyə qovuşmaq arzusu ilə Qəbələdən ayrılırlar.

Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən bu festivalın təşkilində Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük əməyi vardır. Mehriban xanım Əliyevanın son illərdə həyata keçirdiyi mədəniyyət tədbiri təkcə bu festival deyildir. Onun təşəbbüsü ilə istər paytaxt Bakı şəhərində, istərsə də bir sıra regionlarda, o cümlədən Qəbələdə neçə-neçə incəsənət və musiqi layihələri, mədəniyyətimizin yolunu işıqlandıran tədbirlər reallaşdırılmışdır.

Ənənəvi olaraq festivalın açılış mərasimində öncə Heydər Əliyev fondunun Prezidenti Mehriban Əliyevanın festivalın iştirakçılarına təbrik məktubu oxundu. Təbrik məktubu tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Sonra səhnədə respublikanın mədəniyyət və turizm naziri Əbülfəz Qarayev, festivalın bədii rəhbəri, SSRİnin və Azərbaycanın xalq artisti, Azərbaycan Dövlət Mükafatı laueratı, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli göründülər. İlk çıxışa hörmətli nazir Əbülfəz Qarayev başladı. O, əvvəlcə qonaqları və festivalın bütün tamaşaçılarını salamladı və bu əlamətdar, möhtəşəm musiqi bayramı münasibətilə onları təbrik etdi, festivalın işinə uğurlar arzuladı. Natiq çıxışına davam edərək Azərbaycan musiqisinin, incəsənətinin, bütövlükdə mədəniyyətinin inkişafında, bu inkişaf prosesinin dünyaya tanıdılmasında ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük əməyi və rolu olduğunu qeyd etdi. Bu gün iftixarla qeyd etmək olar ki, Qəbələ artıq dünyanın mədəniyyət paytaxtına çevrilməkdədir.

Hörmətli nazir daha sonra ölkənin bugünkü sosial-iqtisadi inkişaf sürətindən, qazanılan uğurlardan, «Bakı- 2015» Avropa Oyunlarının uğurla başa çatmasından, dünyada getdikcə artan nüfuzundan danışdı. Əlbəttə, bu nailiyyətlərin mərkəzində Heydər Əliyev siyasəti, bu siyasətin cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi dayanır. Bu gün cənab Prezidentin qarşısında düran ən mühüm vəzifə budur ki, Azərbaycan xalqı daha xoş gələcəyə qovuşsun, daha yaxşı yaşasın.

Ə. Qarayev çıxışının sonunda festivalın iştirakçılarına, təşkilatçılarına, tamaşaçılarına xoş arzularını bildirdi. Festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli çıxış edərək ilk növbədə Qəbələ Beynəlxalq Musiqi Festivalının təşəbbüskarı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya, festivala dəstək olan orqanlara, bütün təşkilatçılara, köməklik edənlərin hamısına, xüsusilə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi, qonaqları, tamaşaçıları salamladı.

**(Ardı 7-ci səhifədə).**

**Fotolar S. Umuyevindir.**